No: 01 2026
https://doi.org/10.64400/ea26-01-06
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# DİALOJİ DİSKURSDA NƏZAKƏTİN KOMMUNİKATİV STRATEGİYALARI

**Aytən RƏHİMLİ**
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
**Yazışılan müəllif: rehimliayten2@gmail.com*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 03.03.2026*
*Nəşr edilmə tarixi: 17.03.2026*

**AÇAR SÖZLƏR:** dialoji diskurs, nəzakət strategiyaları, kommunikativ strategiyalar, ünsiyyət bacarıqları, dialoqun təşkili, ünsiyyət metodları.

**XÜLASƏ**
Bu tədqiqat işində dialoji diskursda kommunikativ nəzakət strategiyaları təhlil edilir. İnsanlar arasında qarşılıqlı əlaqələrin qurulması zamanı dialoq prosesində nəzakətli ünsiyyət strategiyaları münaqişələrin azaldılmasında mühüm rol oynayır. Dialoji diskursda nəzakət təkcə sosial münasibətlərin qorunmasına kömək etmir, həm də münaqişələrin azaldılmasında, əməkdaşlığın artırılmasında və mənanın effektiv şəkildə çatdırılmasında mühüm rol oynayır. Bu tədqiqatın məqsədi söhbət zaman vacib əhəmiyyət kəsb edən nəzakətli strategiyaları izah etmək, eləcə də onların müxtəlif ünsiyyət kontekstlərində funksiyasını göstərməkdir.
Tədqiqat metodu təsviri analitik mahiyyət kəsb edir. Tədqiqat işi nəzəri mənbələrin sistematik icmalına, diskurs təhlili və nəzakət nəzəriyyələri ilə əlaqədar əvvəlki tədqiqatlara əsaslanır. Tədqiqat eyni zamanda birləşdirilmiş keyfiyyət və kəmiyyət yanaşmasına əsaslanır. Bu tədqiqat nəzakətin söhbətdəki rolunun obyektiv mənzərəsini təqdim edir və daha praktiki tədqiqatlar üçün əsas yaradır. Təhlil edilən obyekt gündəlik söhbətlərdən, institusional qarşılıqlı əlaqələrdən və rəqəmsal vasitəçilik mübadilələrindən götürülmüş dialoqları əhatə edir. Qeyd edək ki, nəzakət strategiyaları müəyyən edilmiş nəzəri modellərə uyğun olaraq təyin edilmişdir. Ümumiyyətlə, nəzakət strategiyaları iştirakçı rollarına və kommunikativ məqsədlərə görə dəyişir. Nəzakətə əsaslanan ünsiyyət strategiyaları fərdlərə fikirlərini effektiv şəkildə təqdim etməyə, mübahisələri sülh yolu ilə həll etməyə və sosial mühitdə müsbət təəssürat yaratmağa kömək edir. Bu strategiyalar yalnız söz seçimi və danışıq tərzi ilə məhdudlaşmır, həm də dinləmə bacarıqlarının, emosiyaların anlaşılmasının və empatiyanın rolunu əhatə edir. Bu tədqiqat müasir ünsiyyətdə nəzakətin praqmatik rolunun daha incə şəkildə başa düşülməsinə töhfə verir.

## GİRİŞ

Dialoji diskurs sadəcə məlumat mübadiləsi ilə məhdudlaşmır, dialoji diskurs həmçinin sosial münasibətlər, qarşılıqlı hörmət və emosiyaların idarə olunması üçün bir vasitədir. Dialoji diskursda nəzakət strategiyaları qarşılıqlı əlaqəni asanlaşdırmaqda, münaqişələrin qarşısını almaqda və həmsöhbətlər arasında harmoniyanın qorunmasında əsas rol oynayır. Ünsiyyət strategiyaları dialoqun təşkilində, mesajların aydın və effektiv ötürülməsində mühüm rol oynayır. Bu strategiyaların istifadəsi qarşılıqlı anlaşmanı inkişaf etdirməyə, hörmət və dəyərə əsaslanan müsbət münasibətlər qurmağa kömək edir.

Dialoji diskursda nəzakət anlayışı P. Braun və S. Levinson (P.Brown & C.Levinson, 1987) tərəfindən geniş şəkildə araşdırılmışdır. Nəzakətlə bağlı ünsiyyət strategiyaları dialoji diskursun vacib elementidir. Onlar yalnız dilin istifadəsini tənzimləmir, həm də ahəngdar mühit yaratmağa kömək edir. Bu strategiyaları anlamaq və istifadə etmək daha effektiv ünsiyyətə, anlaşılmazlıqların qarşısını almağa və sosial əlaqələri gücləndirməyə imkan verir. Effektiv ünsiyyət həm şəxsi, həm də peşəkar həyatda getdikcə daha vacib rol oynayır. Yalnız düzgün sözlərin seçimi deyil, həm də onların təqdim olunma tərzi ünsiyyətin uğurunda mühüm rol oynayır. Bu kontekstdə nəzakət güclü bir ünsiyyət vasitəsi kimi ortaya çıxır. Nəzakət yalnız başqalarına hörmət ifadə etmir, həm də söhbətlərdə əməkdaşlığı, anlaşmanı və etimadı təşviq edir. Nəzakətə əsaslanan kommunikativ strategiyanın məqsədi ünsiyyətin sadə və mülayim olmasını təmin etməkdir. Buraya söz seçimi, səs tonu, bədən dili və sosial-mədəni kontekstdən düzgün istifadə daxildir. Xüsusilə bugünkü çoxmədəniyyətli mühitdə nəzakət ünsiyyəti daha təsirli və məqbul edir, ünsiyyət zamanı yaranan münaqişələri azaldır və münasibətləri gücləndirir.

## ƏSAS MƏTN

Dialoq gündəlik həyatda və sosial münasibətlərdə əsas elementdir. Kommunikativ strategiyalar universal mahiyyət kəsb etmir, bu baxımdan müvafiq strategiyalar mədəni kontekstdən, həmsöhbətlər arasındakı münasibətdən və ünsiyyətin məqsədindən asılıdır. Onları şüurlu şəkildə tanımaq və istifadə etməyi öyrənmək qarşılıqlı anlaşmanı yaxşılaşdırmağa, anlaşılmazlıqların qarşısını almağa və ahəngdar münasibətlər qurmağa imkan verir. Ümumiyyətlə, dialoq dildən istifadə edən iki və ya daha çox insan arasında interaktiv prosesə aiddir. "Dialoqlarda interaksiyanın, iştirakçıların bir-birinə nitq təsirləri baş verir və bu təsirlər qarşılıqlıdır" (G.Xuduyeva, 2024, s. 239).

Gündəlik ünsiyyətdə dialoq yalnız qrammatika və lüğətlə məhdudlaşmır, həm də daha dərin səviyyədə şəxslərarası münasibətləri və fərdlərin niyyətlərini əks etdirir. Dialoqda qarşılıqlı əlaqə nümunələri növbə ilə danışmaq, etiket qaydaları çərçivəsində sual-cavab prosesində işirak etməkdən ibarətdir. Qarşılıqlı əlaqə nümunələri yalnız məlumat ötürülməsinin səmərəliliyinə deyil, həm də sosial münasibətlərin qorunmasına və emosiyaların ifadəsinə təsir göstərir. Bu baxımdan dialoq yalnız informasiya mübadiləsi üçün bir vasitə deyil, həm də sosial qarşılıqlı təsirin vacib daşıyıcısıdır. Qarşılıqlı təsir modellərinə sosial nəzakət prinsipləri də təsir göstərir. P.Braun və C.Levinson nəzakət strategiyalarının müsbət nəzakət və mənfi nəzakətdən ibarət olduğunu irəli sürdülər. Dialoqda bu strategiyalar dolayı ifadə, qeyri-müəyyən sözlər və ya istəklər vasitəsilə özünü göstərir.

Dialoji diskurs ünsiyyət tədqiqatlarında, dilçilikdə və sosial elmlərdə əsas istiqamətlərdən biridir. Növbə ilə danışmaq dialoqun əsas struktur xüsusiyyətidir. İştirakçılar adətən müəyyən qaydalara uyğun olaraq növbə ilə danışırlar. Sual və cavab qarşılıqlı əlaqədə ən tipik struktur nümunələrdən biridir. Sual vermək yalnız məlumat əldə etmək üçün deyil, həm də söhbətin istiqamətini müəyyənləşdirmək və ya nəzakət ifadə etmək üçün istifadə olunur. "Dil etiketi və nəzakət strategiyaları dialoji diskursun harmonik inkişafı üçün əsas şərtlərdəndir" (İsmayılova, 2025, 384). Cavablar qarşılıqlı əlaqəni təsdiq, əlavə və ya inkar etməklə tamamlayır.

Ünsiyyət gündəlik həyatın əsas tərkib hissəsidir, biz onun vasitəsilə fikirlərimizi, emosiyalarımızı və ehtiyaclarımızı ifadə edir, digər insanlarla münasibətlər qururuq. Lakin ünsiyyət yalnız danışmaq və ya yazmaqla deyil, şüurlu şəkildə necə edəcəyimizi seçməklə bağlıdır. Ünsiyyət strategiyaları mesajı aydın, inandırıcı və ya cəlbedici şəkildə çatdırmaq üçün istifadə edilən metodlardır. Onlar həm şifahi, həm də yazılı ünsiyyətə, eləcə də qeyri-verbal ünsiyyətə tətbiq oluna bilər. Əsas məqsəd anlaşılmazlıqları azaltmaq və mesajın təsirini artırmaqdır. Ən vacib strategiyalardan biri dili auditoriyaya uyğunlaşdırmaqdır.

Diskurs təhlili tədqiqatçılara dialoq zamanı informasiya mübadiləsi, sosial normalar və idrak prosesləri arasındakı mürəkkəb əlaqələri aşkar etməyə imkan verir. "Diskurs müəyyən bir zaman kəsiyində müəyyən insan qrupları arasında mövcud olan və digər insan qrupları ilə əlaqəli şəkildə inkişaf etdirilən fikirləri, ifadələri və məlumatları əhatə edir" (H.Çelik, & H.Ekşi, 2013, s.100). Dialoji diskurs təhlili, dili daxili interaktiv və sosial fenomen kimi nəzərdən keçirən teorik və metodoloji bir yanaşmadır. Diskursu təcrid olunmuş bir fenomen kimi təhlil edən modellərdən fərqli olaraq, bu perspektiv yalnız birdən çox həmsöhbət arasında şifahi mübadilə kimi deyil, həm də hər bir ünsiyyət aktının təməl prinsipi kimi başa düşülən dialoqa yönəlmişdir.

Dialoji diskurs insanların gündəlik həyatının ayrılmaz hissəsidir və dialoji diskurs qarşılıqlı əlaqələrdə əsas rol oynayır. Bu tip nitqin keyfiyyəti əsasən nəzakətə riayət etməkdən asılıdır. Dialoji diskursda nəzakət yalnız düzgün sözləri seçməklə deyil, həm də ifadə tərzi, tonu, auditoriyaya hörmət və vəziyyəti anlamağı da əhatə edir. Bu prinsiplərə riayət etmək insan ünsiyyətini daha sağlam və daha təsirli edə bilər. Dialoji diskursda nəzakət qarşılıqlı hörməti qorumaq və söhbətdə gərginliyin qarşısını almaqla bağlı bir sıra dil və davranış normalarından ibarətdir. Bu tip nitqdə insanlar adətən rəsmi struktur olmadan danışırlar, lakin bu qeyri-rəsmilik başqalarının hisslərinə hörmətsizliyə və ya etinasızlığa səbəb olmamalıdır.

Dialoji diskursda nəzakət sosial münasibətləri gücləndirir və fərdlər arasında empatiyanı artırır. "Nəzakət ifadələri gündəlik həyatımızda insan münasibətlərinin çox vacib və incə bir aspektidir" (Sabah, 2023). Nəzakətli dialoq fikirləri sərbəst ifadə etmək üçün yol açır və anlaşılmazlıq ehtimalını azaldır. Söhbətdə nəzakət həmçinin fərdlərin sakitliyini qorumağa və fikir ayrılığı vəziyyətlərində belə məntiqi nəticələr əldə etməyə kömək edir. Danışıqda nəzakətin ən vacib elementlərinə uyğun

sözlərin seçilməsi, sakit ton, aktiv dinləmə və növbə ilə danışmaq daxildir. Başqalarının sözünü kəsməmək, hörmət ifadələrindən istifadə etmək, tələsik mühakimələrdən qaçmaq və bədən dilinə diqqət yetirmək də nəzakətli ünsiyyətin yaradılmasında mühüm rol oynayır. "İnsanın yetkinliyinin əlamətlərindən biri də başqalarını diqqətlə dinləmək və onlara dəyər vermək qabiliyyətidir" (S.Aca, 2024).

Müasir dövrdə sosial şəbəkələrin genişlənməsi nəticəsində danışıq nitqi yeni bir forma almışdır. Kiberməkanda nəzakətə riayət etmək də çox vacibdir, çünki üz-üzə ünsiyyətin olmaması anlaşılmazlıqları artıra bilər. Dialoji diskursda nəzakət sağlam və davamlı ünsiyyətin formalaşmasında mühüm amildir. Bu prinsiplərə riayət etmək təkcə fərdi şəxsiyyəti və mədəniyyəti əks etdirmir, həm də sosial mühitin yaxşılaşdırılmasına kömək edir. Gündəlik söhbətlərdə mədəni danışıqdan və düşünülmüş davranışdan istifadə etməklə hörmət, anlaşma və sülh mühiti yaratmaq olar.

M. Baxtinə görə, hər bir ifadə əvvəlki sözlərə cavab olaraq yaranır və mümkün gələcək reaksiyalara yönəlmişdir. M.Baxtinə görə, diskurs dilin sosial və interaktiv strukturuna əsaslandığı üçün sadə bir ifadə forması deyil, mürəkkəb münasibətlər və ideoloji mövqelər üçün bir vasitədir. Baxtinin fikrincə, "diskurs dialoq xarakterlidir  və dinamik bir quruluşa malikdir" (M.Bahtin, 2001, s. 52). Dialoji diskurs təhlili dilin dinamik və dərin sosial vizyonunu təklif edir. Hər bir ifadəni diskursiv münasibətlər şəbəkəsinin bir hissəsi kimi nəzərdən keçirməklə, bu yanaşma bizə dilin mədəniyyət və cəmiyyətdən fərqini anlamağa imkan verir. Gündəlik həyatda və sosial qarşılıqlı əlaqələrdə insanlar yalnız dil vasitəsilə məlumat çatdırmır, həm də şəxslərarası münasibətləri qoruyurlar. Ünsiyyət nəzakəti strategiyaları bu prosesdə mühüm rol oynayan dil və davranış nümunələridir. Müvafiq nəzakət strategiyaları münaqişələrin azaldılmasına, qarşılıqlı anlaşmanın qurulmasına və anlaşmanın təşviq edilməsinə kömək edir və uğurlu ünsiyyət üçün vacib bir zəmanətdir. "Nəzakət qaydaları həm qurum daxilində, həm də qurum xaricində, məsələn ailədəki ünsiyyətdə böyük əhəmiyyət daşıyır və cəmiyyətdən asılı olaraq dəyişir" (S.Dereli, 2008, s. 24).

Nəzakət strategiyaları ilə bağlı nəzəriyyələr göstərir ki, dil sadəcə məlumat ötürmək üçün bir ünsiyyət forması deyil, həm də güclü bir sosial vasitədir. Daha dinamik və kontekstual modellərə qədər linqvistik nəzakətin öyrənilməsi gündəlik qarşılıqlı əlaqələri və ünsiyyətdəki mədəni fərqləri daha yaxşı başa düşməyimizə kömək edir. Linqvistik nəzakət insan ünsiyyətinin əsas elementidir, onun vasitəsilə danışanlar sosial münasibətləri tənzimləyir, münaqişələrdən yayınır və əməkdaşlıq qururlar. Praqmatik dilçilikdə insanların dildə spesifik nəzakət strategiyalarını necə və niyə qəbul etdiklərini izah etmək üçün müxtəlif nəzəriyyələr hazırlamışdır. Ünsiyyət birtərəfli proses deyil, bu proses dialoq zamanı qarşıdakı insana diqqət yetirməyi, maraq göstərməyi və müvafiq cavab verməyi əhatə edən vacib bir strategiyadır. Bu, dialoqu inkişaf etdirir və ünsiyyətin keyfiyyətini artırır. Ünsiyyət zamanı insanların məqsədi də müzakirə obyektinə çevrilir. "Ünsiyyət strategiyası müəyyən bir qurumun strategiyasını dəstəkləmək məqsədilə seçilmiş ümumi hədəflərlə əlaqəli ünsiyyət proqramları və ya taktikalarıdır" (J.Cornelissen, 2004, p. 184). Sadə cümlələrdən istifadə etmək, həddindən artıq mürəkkəb və ya qəliz terminlərdən qaçmaq və məlumatları məntiqi şəkildə təşkil etmək dialoqun anlaşılmasına kömək edir. Sözlərdən əlavə, bədən dili, səs tonu, üz ifadələri və jestlər də əsas rol oynayır.

Ünsiyyət strategiyaları məktəbdən işə və şəxsi münasibətlərə qədər həyatın hər sahəsində effektiv ünsiyyət üçün vacib vasitələrdir. "Ünsiyyət strategiyaları qurumlara müxtəlif maraqlı tərəflərlə effektiv ünsiyyət qurmaq üçün lazımi strukturu təmin edir və bu tərəflərə çatdırılacaq məlumatın növünü müəyyənləşdirir" (B.Steyn and G.Puth, 2000, p. 64). Bu strategiyalardan şüurlu şəkildə istifadə etməyi öyrənmək qarşılıqlı anlaşmanı yaxşılaşdırır, münaqişələrin qarşısını alır və mesajı daha səmərəli formada çatdırır. Pozitiv nəzakət qarşılıqlı anlaşmanın qurulmasına əsaslanır. Pozitiv nəzakət strategiyasına tez-tez tanışlar arasında istifadə olunur və səmimi bir atmosfer yaratmağa kömək edir. Mənfi nəzakət əsasən başqalarının azadlığına və şəxsi fikirlərinə olan münasibətlə özünü göstərir. Birbaşa münaqişədən qaçmaq üçün natiqlər bəzən əsl niyyətlərini işarələr, ritorik suallar və ya qeyri-müəyyən ifadələr vasitəsilə çatdırırlar. Mövzu həssas olduqda, natiqlər məsələdən yayınaraq, gərginliyi azaltmaq üçün mövzunu dəyişdirə bilərlər. Qeyd etmək vacibdir ki, ünsiyyətdə nəzakət strategiyaları əhəmiyyətli mədəni fərqlərlə təzahür edir. Bəzi

mədəniyyətlərdə birbaşa ifadə açıq və səmimi hesab olunur, digərlərində isə dolayı və incəlik nəzakətli hesab olunur. Buna görə də, mədəniyyətlərarası ünsiyyətdə müxtəlif mədəni sahələrdə nəzakət normalarını anlamaq və onlara hörmət etmək xüsusilə vacibdir.

P.Braun və C.Levinson (P.Brown & C.Levinson, 1987) tərəfindən hazırlanmış nəzakət nəzəriyyəsi dil və sosial qarşılıqlı əlaqənin praqmatikasının öyrənilməsinə ən əhəmiyyətli töhfələrdən birini təmsil edir. "Üz" anlayışına əsaslanan bu nəzəriyyə insanların linqvistik qarşılıqlı təsirlərdə müsbət və mənfi obrazları qorumağa çalışdıqlarını bildirir. P.Braun və C.Levinson nəzakət strategiyaları natiqlərə potensial münaqişələri azaltmağa və sosial münasibətləri idarə etməyə imkan verir. Ümumiyyətlə, P.Braun və C.Levinsonun nəzakət strategiyaları iki əsas kateqoriyaya bölünür: müsbət nəzakət və mənfi nəzakət. Müsbət və mənfi nəzakət strategiyalarının şüurlu istifadəsi qarşılıqlı əlaqədə iştirak edənlərin nitq aktlarında münaqişə potensialının azalmasına töhfə verir. P.Braun və C.Levinsonun nəzəriyyəsi dil, sosial hörmət və güc dinamikası arasındakı əlaqəni anlamaq üçün fundamental konseptual çərçivə təklif edir. Geniş şəkildə yayılmasına baxmayaraq, P.Braun və C.Levinsonun nəzəriyyəsi iddia edilən universalizminə görə tənqid edilmişdir. Bəzi tədqiqatçılar üz və nəzakət strategiyaları anlayışının bütün mədəniyyətlərdə eyni şəkildə özünü göstərmədiyini müşahidə etmişdir.

Nəzakət nəzəriyyəsi mədəniyyətlərarası tədqiqatlara geniş təsir göstərmiş və mədəniyyətlər arasında ünsiyyət fərqlərini təhlil etmək üçün istifadə edilmişdir. Nəzakət nəzəriyyəsi praqmatik dilçiliyə, sosiolinqvistikaya və mədəniyyətlərarası qarşılıqlı əlaqələrin öyrənilməsinə geniş təsir göstərmiş, fərdlərin müxtəlif sosial vəziyyətlərdə ahəngdar və hörmətli münasibətləri qorumaq üçün dillərini necə modulyasiya etdiklərini təhlil etməklə bağlı vasitələr təqdim etmişdir. Qeyd edək ki, nəzakət strategiyaları dil ünsiyyətinin ayrılmaz hissəsidir. Müxtəlif nəzakət strategiyalarından düzgün istifadə yalnız ünsiyyət səmərəliliyini artırmaqla yanaşı, həm də ahəngdar şəxslərarası münasibətləri təşviq edə bilər. Həqiqi qarşılıqlı əlaqələrdə effektiv və uyğun ünsiyyətə nail olmaq üçün ünsiyyət tərəfdaşına, hadisəyə və mədəni mənşəyə əsaslanaraq uyğun nəzakət strategiyalarını çevik şəkildə seçməliyik.

## NƏTİCƏLƏRİN MÜZAKİRƏSİ

Araşdırmalardan belə qənaətə gəlirik ki, dialoji nitqdə nəzakət strategiyaları rahat ünsiyyəti qorumaq üçün vacib bir ünsiyyət mexanizmidir. Dialoq sadəcə məlumat mübadiləsi deyil, hər iki tərəfin müəyyən sosial münasibətlər və kontekstual şərtlər altında birgə qurduğu bir nitq fəaliyyətidir. Buna görə də, nəzakət nitq strategiyaları dialoqun təşkilində və ünsiyyət metodlarının seçilməsində əsas rol oynayır. Nəzakət strategiyalarından düzgün istifadə etməklə ünsiyyətçilər yalnız məlumatı səmərəli şəkildə çatdırmaqla yanaşı, həm də bir-birinin sosial imicini qoruya və potensial münaqişələri azalda bilərlər.

Dialoji nitqdə nəzakət müxtəlif ünsiyyət bacarıqlarının, məsələn, müvafiq müraciət formalarının, dolayı nitq hərəkətlərinin və digər tərəfin mövqeyinə hörmətin hərtərəfli istifadəsində özünü göstərir. Bu strategiyalar ünsiyyətçilər arasında psixoloji məsafəni tənzimləməyə kömək edir, dialoqun əməkdaşlıq və harmoniya əsasında inkişaf etməsinə imkan verir. Nəticə olaraq, dialoji diskursda nəzakət strategiyaları vacib ünsiyyət metodudur. Nəzakət strategiyalarının dialoqda necə işlədiyinin dərin təhlili ünsiyyətçilərin bacarıqlarını artırmağa kömək edir, gündəlik həyatda və peşəkar kontekstlərdə effektiv ünsiyyət üçün nəzəri əsas və praktiki rəhbərliyi təmin edir.

## ƏDƏBİYYAT


1. Aca, S. (2024, 25 Ekim). İletişimde dinleme ve anlamanın nezaket örnekleri. Onlinevaaz.https://www.onlinevaaz.com/vaaz/iliskilerde-dinleme-ve-anlamanin-nezaket-ornekleri
2. Bahtin, M. (2001). Karnavaldan romana edebiyat teorisinden dil felsefesine yazılar (S. Irzık, Ed.; C. Soydemir, Çev.). Ayrıntı Yayınları, 368 s.

3. Brown, P., & Levinson, S. C. (1987). Politeness: Some universals in language usage. Cambridge University Press. 345 p.
4. Cornelissen, J. (2004). Corporate communications: Theory and practice. London: SAGE, 206 p.
5. Çelik, H., & Ekşi, H. (2013). Söylem analizi. Marmara Üniversitesi Atatürk Eğitim Fakültesi Eğitim Bilimleri Dergisi, 27(27), 99-117.
6. Dereli, S. (2008). Sözlü İletişimde Nezaket Stratejileri. Türkbilig(15), 24-52.
7. Xuduyeva, G. (2024). Diskursun kommunikativ mənzərəsi. İpək Yolu, 1, 235–243. https://doi.org/10.30546/1810-911X.2024.1.235.
8. İsmayılova, S. (2025, September 25). Dialoji diskursda dil etiketi və nəzakət strategiyalarının rolu. Global Horizons in Philology and Pedagogy: Experiences of Turkic Nations beynəlxalq konfransı, s. 383-385.
9. Sabah. (2023, 13 Şubat). Nezaket ifadeleri nelerdir? En sık kullanılan nezaket ifadeleri cümleleri neler? https://www.sabah.com.tr/egitim/nezaket-ifadeleri-nelerdir-en-sik-kullanilan-nezaket-ifadeleri-cumleleri-neler-e1-6357535
10. Steyn, B., & Puth, G. (2000). Corporate communication strategy. Sandown: Heinemann, 28 p.

## ABSTRACT

## COMMUNICATIVE STRATEGIES OF POLITENESS IN DIALOGUE DISCOURSE

**Ayten Rahimli**

This research study analyzes communicative politeness strategies in dialogic discourse. Polite communication strategies play an important role in reducing conflicts in the dialogic process when establishing interpersonal relationships. Politeness in dialogic discourse not only helps to maintain social relationships, but also plays an important role in reducing conflicts, increasing cooperation, and effectively conveying meaning. The aim of this study is to explain polite strategies that are important during conversation, as well as to show their function in different communication contexts.

The research method is descriptive-analytical in nature. The research work is based on a systematic review of theoretical sources, previous research on discourse analysis and politeness theories. The study is also based on a combined qualitative and quantitative approach. This study provides an objective picture of the role of politeness in conversation and lays the foundation for more practical research. The object of analysis includes dialogues taken from everyday conversations, institutional interactions, and digitally mediated exchanges. It should be noted that politeness strategies are defined in accordance with established theoretical models.

In general, politeness strategies vary according to the participant roles and communicative goals. Politeness-based communication strategies help individuals to present their ideas effectively, resolve disputes peacefully, and create a positive impression in social settings. These strategies are not limited to word choice and speech style, but also include the role of listening skills, understanding emotions, and empathy. This study contributes to a more nuanced understanding of the pragmatic role of politeness in modern communication.

**Keywords:** *verb tenses, textual cohesion, grammatical connection, sequence, semantic unity*

## РЕЗЮМЕ

## КОММУНИКАТИВНЫЕ СТРАТЕГИИ ВЕЖЛИВОСТИ В ДИАЛОГИЧЕСКОМ ДИСКУРСЕ

**Айтен Рагимли**

В данном исследовании анализируются стратегии коммуникативной вежливости в диалогическом дискурсе. Вежливые коммуникативные стратегии играют важную роль в снижении конфликтов в диалогическом процессе при установлении межличностных отношений. Вежливость в диалогическом дискурсе не только способствует поддержанию социальных связей, но и играет важную роль в снижении конфликтов, повышении сотрудничества и эффективной передаче смысла. Цель данного исследования – объяснить стратегии вежливости, важные в ходе беседы, а также показать их функцию в различных коммуникативных контекстах.

Метод исследования – описательно-аналитический. Работа основана на систематическом обзоре теоретических источников, предыдущих исследований в области дискурс-анализа и теорий вежливости. Исследование также основано на комбинированном качественном и количественном подходе. Данное исследование дает объективную картину роли вежливости в беседе и закладывает основу для более практических исследований. Объектом анализа являются диалоги из повседневных разговоров, институциональных взаимодействий и цифровых обменов. Следует отметить, что стратегии вежливости определяются в соответствии с устоявшимися теоретическими моделями.

В целом, стратегии вежливости различаются в зависимости от ролей участников и коммуникативных целей. Коммуникативные стратегии, основанные на вежливости, помогают людям эффективно излагать свои идеи, мирно разрешать споры и создавать позитивное впечатление в социальных ситуациях. Эти стратегии не ограничиваются выбором слов и стилем речи, но также включают в себя роль навыков слушания, понимания эмоций и эмпатии. Данное исследование способствует более тонкому пониманию прагматической роли вежливости в современной коммуникации.


**Ключевые слова:** *диалогический дискурс, стратегии вежливости, коммуникативные стратегии, коммуникативные навыки, организация диалога, методы коммуникации.*